**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinin məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi atəşə tutması nəticəsində törədilmiş dağıntılar və insan tələfatına dair

# HESABAT

**27 sentyabr – 1 oktyabr 2020**

# GİRİŞ

Bu hesabat 2020-ci ilin 27 sentyabr tarixindən etibarən Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində yeni mövqelər ələ keçirmək məqsədilə mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi atəşə tutması nəticəsində insan hüquqlarının kobud şəkildə pozulması ilə müşayiət olunan müxtəlif dağıntılar və insan tələfatı ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva tərəfindən həyata keçirilən fakt-araşdırıcı monitorinqinin nəticələrinə və real vəziyyətin təhlilinə əsaslanır.

2020-ci ilin 28 sentyabr tarixində baş tutmuş monitorinq Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşi nəticəsində dağıntılara məruz qalmış Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndində və Tərtər rayonunun mülki əhalinin yaşadığı ərazilərdə, eləcə də Tərtər şəhərinin mərkəzində yerləşən rayon məhkəməsinin inzibati binasında həyata keçirilmişdir.

Bu monitorinq Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində insan hüquqlarının pozulmasına dair faktları araşdırmaq və həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşımışdır.

Hesabat 27 sentyabr – 1 oktyabr 2020-ci il tarixlərini əhatə etməklə real faktları özündə əks etdirir.

## Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinin məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi atəşə tutması nəticəsində törədilmiş dağıntılar və insan tələfatına dair məlumat

Bütün dünyada olduğu kimi hazırda Cənubi Qafqaz regionunda da COVID - 19 pandemiyasının tüğyan etməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini mütəmadi olaraq pozması, işğal etdikləri Azərbaycan ərazilərində kütləvi yanğınlar törətməsi, müxtəlif növ ağır silahlardan atəş açmaqla dinc əhalinin sıx məskunlaşdığı ərazilərdə yerləşən yaşayış məntəqələrinə ziyan vurması, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradır. Bu isə dinc azərbaycanlı əhalinin maddi, mənəvi və fiziki məhrumiyyətlər, çoxsaylı insan tələfatları ilə nəticələnir ki, bu da beynəlxalq hüquqi aktlarda və milli qanunvericilikdə təsbit olunmuş insan hüquqlarını və azadlıqlarını kobud şəkildə pozur.

2020-ci il 27 sentyabr tarixində saat 06 radələrindən etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qaravənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdur. Ermənistan silahlı qüvvələrinin mülki əhalinin sıx şəkildə yaşadığı yerləri və obyektləri intensiv şəkildə atəşə tutması

nəticəsində dinc əhali və hərbi qulluqçular həlak olmuş və yaralanmış, çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəymişdir.[1]

**Ombudsmanın fakt-araşdırıcı fəaliyyəti**

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinin sıx məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi atəşə tutması nəticəsində törədilmiş dağıntılar və insan tələfatı ilə nəticələnən hücumuna etiraz olaraq Azərbaycan Ombudsmanı tərəfindən dünya ictimaiyyətinə ünvanlanan bəyanatlar verilmiş[2], işğalçı Ermənistan dövlətinin təcavüzkar və qeyri-insani hərəkətlərinə sosial şəbəkələr - Twitter[3], Facebook[4], habelə kütləvi informasiya vasitələri ilə dərhal reaksiya verilələrək beynəlxalq hüququn norma və prinsipləri əsasında təcili tədbirlərin görülməsi ilə bağlı çağırış edilmişdir.

Azərbaycan Ombudsmanının Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin növbəti dəfə kobud şəkildə pozulmasına və tələfatla nəticələnən təxribat cəhdlərinə, mülki əhalinin, o cümlədən, qadın və uşaqların qətlə yetirilməsinə, habelə mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrinin mütəmadi atəşə tutması və davam edən insan tələfatına etiraz olaraq ardıcıl vermiş olduğu üç bəyanat BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, YUNİSEF-ə, YUNESKO-ya, Avropa İttifaqına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına göndərilmişdir. [5]

2020-ci ilin 28 sentyabr tarixindən etibarən Azərbaycan Ombudsmanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən məlum hadisələrlə bağlı insan hüquqlarının kobud şəkildə pozulması ilə müşayiət olunan müxtəlif dağıntılar və insan tələfatı ilə əlaqədar ağır artilleriya atəşinə məruz qalmış mülki obyektlərdə fakt-araşdırıcı monitorinqlər həyata keçirməyə başlamışdır.[6]

Azərbaycan Ombudsmanı monitorinq səfərləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin ağır artileriya atəşinə məruz qoyduğu Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndində və Tərtər rayonunda mülki əhalinin yaşadığı ərazilərdə, Tərtər

---

[1] https://azertag.az/xeber/1596129

[2] http://ombudsman.gov.az/az/view/pages/88

[3] https://twitter.com/az_ombudsman

[4] https://www.facebook.com/ombudsman.az/?epa=SEARCH_BOX

[5] http://ombudsman.gov.az/en/view/pages/88

[6] http://ombudsman.gov.az/en/view/news/2076/ombudsman-conducted-a-fact-finding-mission-to-the-area-affected-by-artillery-attacks-of-the-armenian-armed-forces

şəhər mərkəzində olmuş və oradakı vəziyyətlə bağlı yerində araşdırmalar aparmışdır.[7]

Fakt-araşdırıcı monitorinq nəticəsində müşahidə olunmuşdur ki, Ermənistan silahlı qüvvələri məqsədli olaraq mülki obyektləri, evləri, xəstəxanaları, təhsil müəssisələrini, uşaq bağçalarını, dövlət orqanlarının inzibati binaları və digər sosial obyektləri hədəfə almışlar.

Ağır artileriya və iriçaplı silahlardan açılan atəşlər, o cümlədən aviasiya zərbələri nəticəsində mülki əhali arasında çoxsaylı ölüm halları və yaralanmalar baş vermiş, yaşayış məntəqələrindəki çoxsaylı fərdi evlər və digər sosial obyektlər tamamilə dağıdılmış, onlara ciddi zərər vurulmuş, ev heyvanları kütləvi şəkildə tələf olmuşdur.

Ombudsman Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndində ikisi uşaq, ikisi ahıl, biri gənc olmaqla 5 nəfərdən ibarət bütöv bir ailənin həlak olduğu evə baş çəkmişdir.[8]







7 https://www.realtv.az/news/az/57482/ombudsman-dushmenin-artilleriya-ateshine-meruz-qalan-erazidefoto?fbclid=IwAR20jkcrQ-xy7tExyN39WJ_MSty9nEsGdZcCQLx5mIszZ6JpP6jL9PuXapk

8 https://www.facebook.com/ombudsman.az/videos/645128086175279/?epa=SEARCH_BOX

Növbəti monitorinq səfəri Ermənistan silahlı qüvvələrinin ağır artileriya hücumuna məruz qalan Tərtər rayonuna olmuşdur. Yerində araşdırma zamanı məlum olmuşdur ki, Tərtər şəhərinin mərkəzində yerləşən rayon Məhkəməsinin inzibati binasının da atəşə tutulması nəticəsində mərmi qəlpələrindən bir nəfər mülki şəxs həlak olmuş, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşının sürücüsü, bir nəfər polis əməkdaşı və bir nəfər şəhər sakini ağır yaralanmışdır.













Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərizisində əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinin ağır artilleriyadan mütəmadi olaraq atəşə tutulması və törətdikləri yanğın və tələfatlar onların işğalçı niyyətlərindən əl çəkmədiklərini və növbəti dəfə yeni ərazilər ələ keçirmək istədiklərini aydın şəkildə

sübut edir. Bu isə bütün sülhyaratma tədbirlərini pozur, insanların həyat və sağlamlığı üçün ciddi təhlükə yaradır, onların təkcə fiziki və maddi cəhəddən deyil mənəvi-psixoloji baxımdan da ağır və riskli vəziyyətdə qalmalarına səbəb olur.

















**Hüquqi aspektlər**

Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi – 822, 853, 874 və 884 saylı qətnamələr Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzü ilə əlaqədar münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi çərçivəsini müəyyən etmişdir.[9]

Həmin qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilmiş, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanmış, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilmiş və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur.[10]

BMT-nin Baş Məclisinin 1974-cü il 14 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş “Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında bəyannamədə”də vurğulanır ki, mülki əhaliyə, xüsusilə, onun ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara, saysız-hesabsız əzab-əziyyət gətirən

---

[9] https://www.mfa.gov.az/en/content/110/munaqisenin-huquqi-aspektleri

[10] http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/bmt.pdf

hücum edilməsi və onun bombardman olunması qadağandır və belə hərəkətlər pislənməlidir. [11]

Bütün dövlətlər qadınların və uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına[12], həmçinin, silahlı münaqişələr dövründə insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquqi aktlarla üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməlidirlər. Ermənistan Respublikası da həmin beynəlxalq müqavilələrdən irəli gələn və üzərinə düşən öhdəlikləri yerinə yetirməli olduğu halda bunu icra etmir.

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və mülki əhalinin yaşadığı digər yaşayış məntəqələrinin isə ağır artileriyadan atəşə tutulması beynəlxalq hüquq norma və prinsiplərinin, beynəlxalq humanitar hüquq normalarının kobudcasına pozulmasıdır.

Azərbaycan ərazilərinin hərbi təcavüzə məruz qalması, mülki obyektlərin mütəmadi olaraq atəşə tutulması həmin ərazilərdə yaşayan əhalinin, o cümlədən uşaqların, qadınların, əlilliyi olan şəxslərin, ahılların, qaçqın və məcburi köçkünlərin beynəlxalq sənədlərdə təsbit olunmuş hüquq və azadlıqlarının kobud şəkildə pozulması ilə nəticələnir.

BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"nın 38-ci maddəsinə əsasən iştirakçı dövlətlər silahlı münaqişələr zamanı onlara tətbiq edilən və uşaqlara aidiyyəti olan beynəlxalq humanitar hüquq normalarına hörmət bəsləməyi və onlara əməl olunmasını təmin etməyi öhdələrinə götürürlər. Silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsi ilə bağlı beynəlxalq humanitar hüquq üzrə öz öhdəliklərinə uyğun olaraq iştirakçı dövlətlər silahlı münaqişənin toxunduğu uşaqların müdafiəsini və onlara baxılmasını təmin etmək üçün bütün mümkün tədbirləri görürlər.[13] Lakin Ermənistan dövləti iştirakçısı olduğu bu sənədin normalarını da kobudcasına pozmaqda davam edir.

Eləcə də, əlilliyi olan şəxslər və məcburi köçkünlər üçün inşa edilmiş yaşayış binasının Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə tutulması faktı ilə bağlı qeyd olunmalıdır ki, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası"nın preambula hissəsində BMT Nizamnaməsində şərh olunan məqsəd və prinsiplərə tam hörmət edilməsinə və insan hüquqları sahəsində tətbiq olunan müqavilələrə riayət edilməsinə əsaslanan sülh və təhlükəsizlik şəraitinin əlilliyi olan şəxslərin tam müdafiə olunması üçün, o cümlədən silahlı münaqişələr və xarici dövlətlərin işğalı zamanı əlilliyi olan şəxslərin müdafiəsi üçün mütləq şərt olması təsbit olunmuşdur.

Bu Konvensiyanın 11-ci maddəsi (Risk vəziyyətləri və fövqəladə humanitar vəziyyətlər) tələb edir ki, iştirakçı dövlətlər beynalxalq humanitar hüquq və insan hüquqlarına dair beynalxalq hüquq da daxil olmaqla, beynəlxalq hüquq üzrə öz öhdəliklərinə uyğun olaraq silahlı münaqişələr, fövqəladə humanitar vəziyyətlər və təbii fəlakətlər də daxil olmaqla risk vəziyyətlərində əlilliyi olan şəxslərin

---

[11] http://mail.gender-az.org/index_az.shtml?id_doc=79

[12] http://www.redcrescent.az/images/ihl/aze/conv1az.pdf

[13] http://scfwca.gov.az/store/media/U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20BMT%20Konvensiyas%C4%B1.pdf

müdafiəsinin və təhlükəsizliyinin təmin olunması üçün bütün zəruri tədbirləri görsünlər. [14]

Bu baxımdan Müvəkkil çağırış edərək bildirir ki, Ermənistan silahlı qüvvələrinin əlilliyi olan şəxslər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binalarını da hədəf alması adıçəkilən beynəlxalq müqavilənin tələblərinin kobud şəkildə pozulması kimi qiymətləndirilməklə şiddətli şəkildə pislənilməlidir.

Avropa İnsan Hüquqları Məhkəməsinin Çıraqov və digərləri Ermənistana qarşı işi üzrə qərarında Ermənistanın Dağlıq Qarabağ və Laçın da daxil olmaqla, ətraf əraziləri öz nəzarəti altında saxladğı bildirilir. Məhkəmə Ermənistanın Avropa İnsan Hüquqları Konvensiyasının 1 saylı Protokolunun 1-ci (mülkiyyət hüququ), 8-ci (şəxsi və ailə həyatına hörmət) və 13-cü maddələrini (effektiv vasitə) pozmaqda davam etdiyini qərarında təsdiq etmişdir.[15]

Ermənistanın hərbi təcavüzünün nəticələri barədə məlumat hesabata əlavə olunmuşdur (Əlavə 3)

**Ermənistan silahlı qüvvələrinin cəbhənin müxtəlif istiqamətlərində dinc əhalinin sıx məskunlaşdığı əraziləri mütəmadi olaraq ağır silahlardan atəşə tutması nəticəsində baş vermiş insan tələfatları və dağıntılar barədə faktlar:**

27 sentyabr 2020-ci il tarixdə saat 06 radələrində Ermənistan silahlı qüvvələri hətta cəbhə ərazisi olmayan Naftalan şəhərinin yaşayış məntəqələrini artilleriya silahlarından atəşə tutmuş və həmin rayonun Qaşaltı Qaraqoyunlu kəndində yerləşən fərdi yaşayış evininin həyətinə mərmi düşməsi nəticəsində ikisi uşaq, ikisi ahıl, biri gənc olmaqla 5 nəfərdən ibarət bütöv bir ailə həlak olmuşdur (24.11.1951-ci il təvəllüdlü Qurbanov Elbrus İsa oğlu, onun həyat yoldaşı olan 22.02.1956-cı ci il təvəllüdlü Qurbanova Şəfayət Novruz qızı, gəlini 12.01.1981-ci il təvəllüdlü Əmirova Afaq Dəmir qızı, orta məktəb şagirdləri olan nəvələri, 01.03.2006-cı il təvəllüdlü Qurbanova Fidan Elşən qızı və 30.11.2007-ci il təvəllüdlü Qurbanov Şəhriyar Nadir oğlu).[16]

28 sentyabr 2020-il tarixdə saat 07 radələrində Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı qüvvələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində Ağdam rayonu Evoğlu kəndinin ərazisinə düşmüş mərmi nəticəsində kənd sakini 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlu baş nahiyəsindən qəlpə yarası xəsarətləri alaraq Ağdam rayon mərkəzi xəstəxanasına yerləşdirilmiş və göstərilmiş tibbi yardımlara baxmayaraq həlak olmuşdur. [17]

28 sentyabr 2020-ci il tarixdə saat 11 radələrində Ermənistan silahlı qüvvələrinin Tərtər şəhərini ağır artilleriya atəşinə tutması və əsasən mülki şəxslərin və obyektlərin məqsədyönlü şəkildə hədəfə alnması nəticəsində şəhərin mərkəzində yerləşən rayon Məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən bir nəfər (1975-

---

[14] http://e-qanun.az/framework/15641

[15] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-155353%22]}

[16] https://sputnik.az/video/20200928/425051810/Naftalanda-butun-ailenin-telef-oldughu-evden-deh.html

[17] https://report.az/dagliq-qarabag-munaqishesi/bas-prokurorluq-cebhedeki-veziyyetle-bagli-yeni-melumat-yayib/

ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu) həlak olmuş[18], həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşının sürücüsü (1968-ci il təvəllüdlü Əsədov Qəmbər Əsgər oğlu), ərazidə olan bir nəfər polis əməkdaşı (1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu) və ərazidə olan digər Tərtər şəhər sakini (1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu) yaralanmışdır.[19]

28 sentyabr 2020-ci il tarixdə saat 18:40 radələrində Cəbrayıl rayonu, Cocuq Mərcanlı kənd sakini, 2006-cı il təvəllüdlü Həziyev Hilal İlqar oğlu kənd ərazisində qoyun otararkən Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində baş nahiyəsindən qəlpə yarası xəsarəti alaraq xəstəxanaya yerləşdirilmişdir. [20]

28 sentyabr 2020-ci il tarixdə saat 19 radələrində Tərtər rayonu Şıx arx qəsəbəsində yerləşən əlilliyi olan şəxslər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində Tərtər rayon sakinləri 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu və onun qardaşı 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu həlak olmuşlar. 1984-ci il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu, 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmişlər.[21]

28 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin mülki obyektlərimizi atəşə tutması nəticəsində Tərtər şəhəri E.Səfərov küçəsində yerləşən 54 mənzildən ibarət 10 saylı bina, həmin rayonun Şıxarx qəsəbəsində 16 saylı çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşmüş, bina sakinləri təxliyə edilmişlər. [22]

28 sentyabr 2020-ci il tarixdə saat 18 radələrində Ermənistan silahlı qüvvələrinin Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndinin “Şamlıq” adlanan ərazisini iriçaplı silahlardan atəşə tutması nəticəsində həmin əraziyə düşən mərmi nəticəsində orada xırda-buynuzlu heyvanlarını otaran Cəbrayıl rayonu, Cocuq Mərcanlı kənd sakini 29.01.2000-ci il təvəllüdlü Həziyev Hilal Murad oğlu baş nahiyəsindən qəlpə yarası xəsarəti alaraq xəstəxanaya yerləşdirilmişdir. [23]

29 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində Qapanlı kəndində Poçt binası və kənd xəstəxanası top mərmisi ilə dağıdılmışdır. Bundan əlavə Qapanlı kənd sakini Zülfüqar Quliyevin həyətinə düşən top mərmisi nəticədə ona məxsus şəxsi təsərrüfata ciddi ziyan dəymişdir. [24]

27 sentyabr 2020-ci il tarixdən etibarən Ermənistan silahlı qüvvələrinin Füzuli rayonu istiqamətində dinc əhalinin sıx yaşadığı kəndləri atəşə tutması nəticəsində rayonun Zobucuq 3 qəsəbəsində 2 ev, Zobucuq 2 qəsəbəsində 3 ev, Şükürbəyli kəndində1 ev, Araytalı kındində 2 ev, Horadiz şəhərində 4 evə zərər dəymiş və 2 nəfər mülki şəxs xəsarət almışdır. [25]

---

[18] https://www.bakupost.az/terterde-mehkeme-binasi-vuruldu-fotolar
[19] https://azedu.az/az/news/35026-terterde-tecili-tibbi-yardim-masini-vuruldu-fotolar
[20] https://hit.az/az/olke/159078/ermeniler-14-yasli-usaa-ates-acdilar-resmi/
[21] https://qafqazinfo.az/news/detail/ermenilerin-yaraladigi-daha-bir-mulki-sexs-oldu-299800
[22] https://www.fed.az/az/huquq/ermeniler-terterin-esas-strateji-korpusu-ve-polis-sobesine-zerbeler-endirib-89008
[23] https://hit.az/az/olke/159078/ermeniler-14-yasli-usaa-ates-acdilar-resmi/
[24] https://modern.az/az/news/257683
[25] https://ona.az/az/dagliq-qarabag/ermeniler-fuzuli-rayonundaki-zobucuq-ikinci-qesebesindeki-xestexanani-atese-tutub-foto-24094

29 sentyabr 2020-ci il tarixdə saat 13 radələrində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Ağdam rayonu, Qaradağlı kəndində tibb məntəqəsinə düşmüş top mərmisinin qəlpələrindən kənd sakini 1997-ci il təvəllüdlü Sarıyev Elməddin Hümbət oğlu həlak olmuş, məntəqənin binası dağılmış, ərazidəki sakinlər təxliyyə edilmişdir. [26]

29 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin atdığı top mərmisinin Tərtər şəhəri, Üzeyir Hacıbəyov küçəsində yaşayış evinə düşməsi nəticədə ev sahibəsi 1965-ci il təvəllüdlü Mehtiyeva Ayna Məhəmmədəli qızı həlak olmuşdur. [27]

29 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində yerləşən kəndləri intensiv atəşə tutması nəticəsində evlərə və şəxsi təsərrüfatlara ciddi ziyan dəymişdir.[28]

29 sentyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrinin top mərmiləri ilə atəş açması nəticəsində 12.02.1971-ci il təvəllüdlü Səfərov İxtiyar Əjdər oğlu yaşadığı evin həyətində öldürülmüşdür.

30 sentyabr 2020-ci il tarixdə saat 08 radələrində Tərtər şəhəri Aliağa Vahid küçəsində Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tərtər rayon şöbəsinin inzibati binasının qarşısında düşən mərminin partlaması nəticəsində 24.12.1987-ci il təvəllüdlü İbrahimov Şahin Mahmud oğlu və 27.08.1971-ci il təvəllüdlü Əliyev Müzəffər Əli oğlu həlak olmuşlar.

30 sentyabr 2020-ci il tarixdə saat 16 radələrində Füzuli rayonunun Horadiz şəhəri ərazisində "Azpetrol" yanacaqdoldurma məntəqəsinin yaxınlığında mərminin partlaması nəticəsində 16.02.1990-cı il təvəllüdlü Rüstəmov Murad Tahir oğlu həlak olmuşdur.

30 sentyabr 2020-ci il tarixdə saat 08 radələrində Ermənistan silahlı qüvvələrinin növbəti dəfə ağır artilleriyadan Tərtər şəhərini intensiv atəşə tutması səbəbindən dövlət qurumlarının inzibati binalarının yaxınlığına top mərmisinin düşməsi nəticəsində 7 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, o cümlədən mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəymişdir. [29]

01 oktyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunu atəşə tutması nəticəsində rayonun Hacıməmmədli kənd sakinləri – 16.03.1966-cı il təvəllüdlü Məmmədov Mürşid Rəşid oğlu və onun oğlu, 15.04.1996-cı il təvəllüdlü Məmmədov Samir Mürşid oğlu həlak olmuşlar.[30]

2020-ci il 27 sentyabr tarixdən başlayan döyüşlər zamanı mülki əhalini və obyektləri hədəfə alan Ermənistan silahlı qüvvələrinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində dinc əhalini yenidən ağır artilleriya atəşinə tutması və aviasiya zərbələrinə məruz qoyması nəticəsində onlarla ev dağıntıya məruz qalmışdır. [31]

---

[26] https://qafqazinfo.az/news/detail/agdamda-ermeniler-tibb-menteqesini-vurdu-mulki-sexs-helak-oldu-299871
[27] https://azerforum.com/az/criminal/746270/terterde-daha-bir-ermeni-vehsiliyi-tibb-bacisi-lduruldu-fotolar
[28] https://525.az/site/?name=xeber&news_id=150478#gsc.tab=0
[29] https://sputnik.az/life/20200930/425069197/mulki-vetendaslar-vurulub-yeddi-nefer.html
[30] https://oxu.az/war/426643
[31] https://video.azertag.az/video/103237

Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində 27 sentyabr 2020-ci il tarixdən 1 oktyabr 2020-ci il tarixədək ümumilikdə mülki əhalidən 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, 19 nəfər şəxs isə həlak olmuşdur. Bundan başqa, Ermənistan silahlı qüvvələri əhalinin sıx yaşadığı məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir. İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 175 yaşayış evinə, həmçinin, 41 mülki obyektə külli miqdarda ziyan vurulmuş, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşmüş, çoxsaylı şəxsi təsərrüfata ciddi ziyan dəymişdir.[32]

Ermənistan silahlı qüvvələri tərifindən 27 sentyabr – 1 oktyabr 2020-ci il tarixlərində qətlə yetrilmiş və yaralanmış şəxslərin siyahısı hesabata əlavə olunmuşdur (Əlavə 1 və Əlavə 2)

Qeyd etmək lazımdır ki, işğalçı Ermənistan tərəfindən Azərbayanın mülki əhalisinə qarşı qeyri-insani hərəkətlər hazırda da davam etdirildiyindən bu rəqəmlər hər an arta bilər.




Ermənistan dövləti beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla Azərbaycan ərazilərində dinc əhaliyə qarşı hüququazidd əməllərini davam etdirir.

[32] https://sputnik.az/karabakh/20201002/425087848/Ba-Prokurorluq-melumat-yayb.html

## Nəticə

Ermənistan silahlı qüvvələrinin yeni ərazilər işğal etmək və əhali arasında kütləvi qırğınlar törətmək məqsədilə Azərbaycanlı mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi atəşə tutması nəticəsində insan hüquqlarının kobud şəkildə pozulması ilə müşayiət olunan müxtəlif dağıntılar və insan tələfatı ilə əlaqədar fakt-araşdırıcı monitorinq həyata keçirmək üçün Naftalan şəhəri və Tərtər rayonları ərazisində apardığı araşdırma zamanı Müvəkkil fundamental insan hüquq və azadlıqlarının - yaşamaq, mülkiyyət, tibbi yardım almaq, təhsil, istirahət, sosial təminat, əmək, mənzil hüququnun və s. kobud şəkildə pozulması ilə bağlı bir çox faktları aşkar etmişdir.

Təhlil olunmuş faktlar bir daha sübut edir ki, Ermənistan silahlı qüvvələrinin son zamanlar xüsusilə mülki yaşayış obyektlərini hədəf aldığı hücumları mülki əhali arasından çoxsaylı insan tələfatına nail olmaq, əhalidə qorxu hissi yaratmaq, habelə bu günə qədər əldə edilmiş bütün sülh yaratma fəaliyyətini pozmaq və yeni ərazilər işğal etmək məqsədi daşıyır.

Bütün dünya əhalisi COVID-19 ilə əlaqədar çətin bir dövrdən keçməkdədir. Ümumdünya Səhiyyə Təşkilatının elan etdiyi pandemiya dövründa beynəlxalq ictimaiyyət birlik nümayiş etdirərək virusun yayılmasının qarşısını almaq məqsədilə tədbirlər görməkdədir. Azərbaycan Respublikası da ölkədə xüsusi karantin rejimi elan etmişdir. Həmin dövrdən Milli İnsan Hüquqları Təsisatı olaraq, virusa qarşı mübarizə sahəsində görülən bütün tədbirləri tamamilə dəstəkləmişik.

Bütün bunlara baxmayaraq Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə yaxın bölgələrdə yaşayan mülki əhalinin yaşayış şəraiti ilə bağlı əvvəlki bəyanatlarımızda da qaldırdığımız narahatlıqlar hələ də qalmaqdadır.

2020-ci il 1 aprel tarixində BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının rəsmi internet səhifəsində yerləşdirilmiş BMT-nin Məcburi köçkünlərin hüquqları üzrə Xüsusi Məruzəçisi xanım Sesiliya Ximenez - Damari tərəfindən COVID-19 ilə əlaqədar yayılmış xüsusi bəyanatında vurğulanmışdır ki, “*məcburi köçkünlər sağlamlıq xidmətlərinə, içməli suya, sanitar gigiyenik vəziyyətə, qidaya və adekvat mənzilə kifayət qədər müyəssərlikləri olmadığı üçün COVİD-19 virusuna ən yüksək yoluxma riski daşıyan və tez-tez ayrı-seçkiliyə məruz qalan əhali qrupudur*.[33]

*Bunu nəzərə alaraq, qeyd edilməlidir ki, hazırda işğal altında olan bölgələrimizə yaxın ərazilərdə həyat şəraiti pandemiya səbəbindən daha da ağırlaşmışdır. Beləliklə, həmin ərazilərdə yaşayan insanların, o cümlədən məcburi köçkünlərin təmiz suya, və buna görə də sanitar-gigiyenik vəziyyətə çatımlıqları böyük risk altındadır”*. [34]

Ermənistan silahlı qüvvələrinin yeni ərazilər işğal etmək məqsədilə başladığı hücumlar mülki əhalinin həyat və sağlamlığı üçün yeni təhlükələrin yaranmasına səbəb olmuşdur. Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozması bir daha onların əsl niyyətinin məhz təcavüz olduğunu sübut edir.

---

[33] https://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=25763&LangID=E
[34] https://www.unicef.org/mena/stories/appeal-global-cease-fire

BMT Nizamnaməsinin 51-ci maddəsində qeyd edilir ki, *bu Nizamnamənin heç bir müddəası BMT üzvünə qarşı silahlı hücum baş verdiyi zaman Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması üçün zəruri tədbirlər görülənə qədər, ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdafiə hüququna xələl gətirmir*. [35]

Azərbaycana qarşı təcavüz törətməklə, Ermənistan beynəlxalq və humanitar hüquq normalarını tamamilə göz ardı edir.

Müvəkkilin fakt-araşdırıcı monitorinqi bir daha bu nəticəyə gəlməyə əsas verir ki, Ermənistan Azərbaycanlı əhalinin yaşadığı mülki obyektlərə hücum etməklə insan hüquqlarını, eləcə də beynəlxalq və humanitar hüquq normalarını kobudcasına pozmuşdur.

Bu hesabatı hazırlamaqla Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq, Azərbaycan-Ermənistan sərhədində baş verən insanlıq faciəsinə dair real faktları sizə təqdim etmək istəyirəm.

Mən beynəlxalq ictimaiyyəti bu hüquq pozuntusuna və Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoymağa, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi naminə bütün lazımi tədbirləri görməyə çağırıram.

**Qeyd:** Ermənistan silahlı qüvvələrinin 27 sentyabr 2020-ci il tarixindən 1 oktyabr 2020-ci il tarixinə qədərki dövr ərzində Azərbaycanın mülki əhalisinin məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi atəşə tutması nəticəsində həlak olmuş və xəsarət almış dinc əhaliyə dair siyahı hesabata əlavə edilir:

[35] https://legal.un.org/repertory/art51.shtml

***Əlavə 1***

**Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsidə həlak olmuş dinc sakinlərin**

**S İ Y A H I S I**

27 sentyabr – 1 oktyabr 2020

| | |
|---|---|
| 1. | 1951-ci il təvəllüdlü Qurbanov Elbrus İsa oğlu (Naftalan şəhəri, Qaşaltı Qaraqoyunlu kəndi, 27.09.2020) |
| 2. | 1956-cı il təvəllüdlü Qurbanova Şəfayət Novruz qızı (Naftalan şəhəri, Qaşaltı Qaraqoyunlu kəndi, 27.09.2020) |
| 3. | 1981-ci il təvəllüdlü Əmirova Afaq Dəmir qızı (Naftalan şəhəri, Qaşaltı Qaraqoyunlu kəndi, 27.09.2020) |
| 4. | 2006-cı il təvəllüdlü Qurbanova Fidan Elşən qızı (Naftalan şəhəri, Qaşaltı Qaraqoyunlu kəndi, 27.09.2020) |
| 5. | 2007-ci il təvəllüdlü Qurbanov Şəhriyar Nadir oğlu (Naftalan şəhəri, Qaşaltı Qaraqoyunlu kəndi, 27.09.2020) |
| 6. | 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlu (Ağdam rayonu, 28.09.2020) |
| 7. | 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu (Tərtər rayonu, 28.09.2020) |
| 8. | 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu (Tərtər rayonu, 28.09.2020) |
| 9. | 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu (Tərtər rayonu, 28.09.2020) |
| 10. | 1981-ci il təvəllüdlü Əsədov Sabit Usub oğlu (Tərtər rayonu, 28.09.2020) |
| 11. | 1997-ci il təvəllüdlü Sarıyev Elməddin Hümbət oğlu (Ağdam rayonu, 29.09.2020) |
| 12. | 1965-cu il təvəllüdlü Mehtiyeva Ayna Məhəmmədəli qızı (Tərtər şəhəri, Ü.Hacıbəyov küç., 29.09.2020) |
| 13. | 1971-ci il təvəllüdlü Səfərov İxtiyar Əjdər oğlu (Füzuli rayonu, Alıxanlı kəndi, 29.09.2020) |
| 14. | 1988-ci il təvəllüdlü İbrahimov Şahin Mahmud oğlu (Tərtər şəhəri, 30.09.2020) |
| 15. | 1990-cı il təvəllüdlü Rüstəmov Murad Tahir oğlu (Füzuli rayonu, Horadiz şəhəri, 30.09.2020) |
| 16. | 1971-ci il təvəllüdlü Əliyev Müzəffər Əli oğlu (Tərtər rayonu, 30.09.2020) |
| 17. | 1982-cı il təvəllüdlü Həsənov Zabil Məhəmməd oğlu (Tərtər şəhəri, 01.10.2020) |
| 18. | 16.03.1966-cı il təvəllüdlü Məmmədov Mürşüd Rəşid oğlu (Ağdam rayonu, 01.10.2020) |
| 19. | 15.04.1996-cı il təvəllüdlü Məmmədov Samir Mürşüd oğlu (Ağdam rayonu, 01.10.2020) |

*Əlavə 2*

**Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsidə xəsarət almış dinc əhalinin**

**S İ Y A H I S I**

27 sentyabr – 1 oktyabr 2020

| | |
|---|---|
| 1. | 1987-ci il təvəllüdlü Həsənov Röya İlya oğlu (Tərtər rayonu, 27.09.2020) |
| 2. | 1982-ci il təvəllüdlü Zalov Cəlal Əli oğlu (Daşkəsən rayonu, 27.09.2020) |
| 3. | 1960-cı il təvəllüdlü Məmmədov Füzuli Heydər oğlu (Füzuli rayonu, 27.09.2020) |
| 4. | 1995-ci il təvəllüdlü Quliyev Vüsal Vüqar oğlu (Füzuli rayonu, 27.09.2020) |
| 5. | 1966-cı il təvəllüdlü Məmmədov Rəhbər Əkbər oğlu (Ağdam rayonu, Dördyol-1 qəsəbəsi, 27.09.2020) |
| 6. | 1997-ci il təvəllüdlü Allahyarov Eşqin Elnur oğlu (Ağdam rayonu, Mirəşirli kəndi, 27.09.2020) |
| 7. | 1961-ci il təvəllüdlü Zeynalov Bəykişi Musa oğlu (Ağdam rayonu, Qaradağlı kəndi, 27.09.2020) |
| 8. | 1980-ci il təvəllüdlü Adıgözəlov Tağı Ələsgər oğlu (Ağdam rayonu, Dördyol-1 qəsəbəsi, 27.09.2020) |
| 9. | 1977-ci il təvəllüdlü Məmmədova Maxruq Ələsgər qızı (Ağdam rayonu, Dördyol-1 qəsəbəsi, 27.09.2020) |
| 10. | 1988-ci il təvəllüdlü Sərdarov Emin Nəriman oğlu (Goranboy rayonu, 27.09.2020) |
| 11. | 1992-ci il təvəllüdlü Dadaşov Araz Zəfər oğlu (Ağdam rayonu, Əhmədağalı kəndi, 27.09.2020) |
| 12. | 1988-ci il təvəllüdlü Bayramova Səliqə Əvəz qızı (Ağcabədi rayonu, Köyük kəndi, 27.09.2020) |
| 13. | 1996-cı il təvəllüdlü Bayramov Nicat Ürfət oğlu (Ağdam rayonu, Zəngişanlı kəndi, 27.09.2020) |
| 14. | 1942-ci il təvəllüdlü Quliyeva Zəhra İsa qızı (Ağcabədi rayonu, Köyük kəndi, 27.09.2020) |
| 15. | 2009-cu il təvəllüdlü Quluzadə Mehman Əlvan oğlu (Ağcabədi rayonu, Köyük kəndi, 27.09.2020) |
| 16. | 1998-ci il təvəllüdlü Bayramov Şəmistan Nazim oğlu (Ağcabədi rayonu, Köyük kəndi, 27.09.2020) |
| 17. | 1993-cü il təvəllüdlü Cəfərli Lənkəran Azər oğlu (Ağdam rayonu, Çəmənli kəndi, 27.09.2020) |
| 18. | 1998-ci il təvəllüdlü Musayev Niyaməddin Cəsarət oğlu (Ağcabədi rayonu, Köyük kəndi, 27.09.2020) |
| 19. | 1968-ci il təvəllüdlü Əsədov Qəmbər Əsgər oğlu (Tərtər rayonu, 28.09.2020) |
| 20. | 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu (Tərtər rayonu, 28.09.2020) |
| 21. | 2006-cı il təvəllüdlü Həziyev Hilal İlqar oğlu (Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi, 28.09.2020) |
| 22. | 1984-cü il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu (Bərdə rayonu, Kələntərli kəndi, 28.09.2020) |
| 23. | 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu (Bərdə rayonu, Kələntərli kəndi, 28.09.2020) |
| 24. | 1995-ci il təvəllüdlü İsmayıllı Şəhriyar Tahir oğlu (Tərtər rayonu, Sarıcalı kəndi, 28.09.2020) |
| 25. | 1969-cu il təvəllüdlü Məmmədov Şükrət Azay oğlu (Tərtər rayonu, Qazyan kəndi, 28.09.2020) |
| 26. | 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu (Tərtər rayonu, 28.09.2020) |
| 27. | 1968-ci il təvəllüdlü Əsgərov Həsən Abil oğlu (Tərtər rayonu, Borsunlu kəndi, 29.09.2020) |
| 28. | 1956-cı il təvəllüdlü Namazova Tahirə Qardaşxan qızı (Ağcabədi rayonu, Hindarx qəsəbəsi, 29.09.2020) |
| 29. | 1973-cü il təvəllüdlü Əhmədov İlyas İmran oğlu (Goranboy rayonu, 29.09.2020) |
| 30. | 1993-cü il təvəllüdlü Pirizadə Tural Rabil oğlu (Tərtər rayonu, Borsunlu kəndi, 29.09.2020) |
| 31. | 1968-ci il təvəllüdlü Əsgərov Həsən Adil oğlu (Tərtər rayonu, Borsunlu kəndi, 29.09.2020) |

| | |
|---|---|
| 32. | 1962-ci il təvəllüdlü Quliyev Azad Musa oğlu (Tərtər rayonu, Qaynaq kəndi, 29.09.2020) |
| 33. | 1940-cı il təvəllüdlü Mustafayev Asif Cəmil oğlu (Tərtər rayonu, Qazyan kəndi, 29.09.2020) |
| 34. | 1965-ci il təvəllüdlü Əliyev Mübariz Sədr oğlu (Tərtər rayonu, Seydimli kəndi, 29.09.2020) |
| 35. | 1964-cü il təvəllüdlü Kazımov Rahim Allahverdi oğlu (Ağcabədi rayonu, Hindarx kəndi, 29.09.2020) |
| 36. | 1994–cü il təvəllüdlü İbrahimli Fuad Məzahir oğlu (Tərtər rayonu, 30.09.2020) |
| 37. | 1962-ci il təvəllüdlü İbrahimov Mahmud Qaçay oğlu (Tərtər rayonu, 30.09.2020) |
| 38. | 1994-cü il təvəllüdlü İsmayıllı İsmayıl Təvəkkül oğlu (Tərtər rayonu, 30.09.2020) |
| 39. | 1998-ci il təvəllüdlü Şərifov İlqar Bəxtiyar oğlu (Tərtər rayonu, 30.09.2020) |
| 40. | 1964-cü il təvəllüdlü Qasımov Rahib Allahverdi oğlu (Ağdam rayonu, 30.09.2020) |
| 41. | 1989-cu il təvəllüdlü Fərəcov Rahib Mirzəməmməd oğlu (Ağdam rayonu, Çəmənli kəndi, 29.09.2020) |
| 42. | 1947-ci il təvəllüdlü Həsənov İsmayıl Məmməd oğlu (Ağdam rayonu, Baharlı kəndi, 29.09.2020) |
| 43. | 1967-ci il təvəllüdlü Qasımov Fikrət Şura oğlu (Ağdam rayonu, Səfərli qəsəbəsi, 30.09.2020) |
| 44. | 1983-cü il təvəllüdlü Abışova Gülzarə Eldəniz qızı (Ağdam rayonu, 30.09.2020) |
| 45. | 1992-ci il təvəllüdlü Şükürov Şükür Şakir oğlu (Ağdam rayonu, Novruzlu kəndi, 30.09.2020) |
| 46. | 1965-ci il təvəllüdlü Əliyev Şaxvələd Musa oğlu (Goranboy rayonu, Naftalan şəhəri Qaşaltı Qaraqoyunlu kəndi, 30.09.2020) |
| 47. | 1991-ci il təvəllüdlü Dərgahov Rəşad Əvəz oğlu (Füzuli rayonu, Horadiz şəhəri, 30.09.2020) |
| 48. | 1981-ci il təvəllüdlü Abbaszadə Xəyyam Mütəllim oğlu (Füzuli rayonu, Əhmədalılar kəndi, 30.09.2020) |
| 49. | 1982-ci il təvəllüdlü İsmayılov Dəyanət Sehliman oğlu (Ağcabədi rayonu, Boyat kəndi, 30.09.2020) |
| 50. | 1979-cu il təvəllüdlü Mehtiyev İsmayıl Rüstəm oğlu (Tərtər rayonu, Qarağacı kəndi, 01.10.2020) |
| 51. | 1988-ci il təvəllüdlü İsmayılov Arzu Ramiz oğlu (Tərtər rayonu, Dəmirçilər kəndi, 01.10.2020) |
| 52. | 1983-cü il təvəllüdlü Rəhimova Aybəniz Nazim qızı (Tərtər rayonu, Qaradağlı kəndi, 01.10.2020) |
| 53. | 1958-ci il təvəllüdlü Məmmədov Elman Müslüm oğlu (Tərtər rayonu, Qapanlı kəndi, 01.10.2020) |
| 54. | 2000-ci il təvəllüdlü Alışanov Telman Nərimanov oğlu (Tərtər rayonu, Dəmirçilər kəndi, 01.10.2020) |
| 55. | 1983-cü il təvəllüdlü Rəhimova Gülnarə Fabir qızı (Tərtər rayonu, Qaradağlı kəndi, 01.10.2020) |

*Əlavə 3*

# Ermənistan Respublikasının hərbi təcavüzünün nəticələri (Statistika)



## AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİ

**Cəbhə xəttinin uzunluğu — 246 km**

| Dağlıq Qarabağ (1989) | O cümlədən: Şuşa rayonu |
|---|---|
| Ərazi — 4 388 kv.km<br>Əhali — 189 085<br>Ermənilər — 145 450 (76.9 %)<br>Azərbaycanlılar — 40 688 (21.5 %)<br>Sair — 2 947 (1.6 %)<br>Sərhədin uzunluğu — 485 km | Ərazi — 312 kv.km<br>Əhali — 20 579<br>Azərbaycanlılar — 19 036 (92.5%)<br>Ermənilər — 1 377 (6.7%)<br>İşğal olunmuşdur — 1992-ci il, 8 may |

## DAĞLIQ QARABAĞIN ƏTRAFINDAKI RAYONLAR

| Rayonlar | İşğal olunmuşdur | Əhalisi- 2015 |
|---|---|---|
| Laçın rayonu | 1992-ci il, 18 may | 74 100 |
| Kəlbəcər rayonu | 1993-cü il, 2 aprel | 88 300 |
| Ağdam rayonu | 1993-cü il, 23 iyul | 191 700 |
| Füzuli rayonu | 1993-cü il, 23 avqust | 125 400 |
| Cəbrayıl rayonu | 1993-cü il, 23 avqust | 76 600 |
| Qubadlı rayonu | 1993-cü il, 31 avqust | 38 900 |
| Zəngilan rayonu | 1993-cü il, 29 oktyabr | 42 700 |

## TƏCAVÜZÜN QURBANLARI

| | | |
|---|---|---|
| Həlak olmuşdur - 20 000 | Əlil olmuşdur - 50 000 | İtkin düşmüşdür (2015) - 4 011 |

**Qeyd:** Münaqişə müddətində 6000-dən çox Azərbaycan vətəndaşı itkin düşmüş, əsir-girov götürülmüşdür.

## DAĞINTILAR VƏ ZİYANLAR (1988-1993-cü illər)

| | |
|---|---|
| Yaşayış məntəqələri | 900 |
| Evlər | 150 000 |
| İctimai binalar | 7 000 |
| Məktəblər | 693 |
| Uşaq bağçaları | 855 |
| Tibb müəssisələri | 695 |
| Kitabxanalar | 927 |
| Məbədlər | 44 |
| Məscidlər | 9 |
| Tarixi abidələr, saraylar və muzeylər | 473 |
| Muzey eksponatları | 40 000 |
| Sənaye və kənd təsərrüfatı müəssisələri | 6 000 |
| Avtomobil yolları | 2 670 |
| Körpülər | 160 |
| Su kommunikasiyaları | 2 300 km |
| Qaz kommunikasiyaları | 2 000 km |
| Elektrik xətləri | 15 000 km |
| Meşələr | 280 000 ha |
| Kənd təsərrüfatı üçün yararlı torpaqlar | 1 000 000 ha |
| İrriqasiya sistemləri | 1 200 km |

**QAÇQIN, MƏCBURİ KÖÇKÜN VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏR (2015)**

| | |
|---|---|
| Ermənistandan qaçqınlar | 350 000 |
| Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər | 789 000 |
| Orta Asiyadan qaçqınlar (Axısxa türkləri) | 60 000 |
| Digər ölkələrdən olan qaçqın və sığınacaq axtaran şəxslər (2003-cü ilə qədər onların sayı 11 000 nəfər olmuşdur) | 1 500 |
| **Cəmi:** | 1 200 500 |
| | |

**İşğal edilmiş ərazilərdə olan Ermənistan hərbi qüvvələri (2015)**

| | | | |
|---|---|---|---|
| Tank — 350 | Artilleriya — 425 | ACV — 398 | Şəxsi heyət — 45 000 nəfər |

**İşğal edilmiş ərazilərə qanunsuz köçürülən əhali (2015)**

| | |
|---|---|
| Dağlıq Qarabağ | 8 500 |
| Laçın | 13 000 |
| Kəlbəcər | 700 |
| Zəngilan | 520 |
| Cəbrayıl | 280 |
| **Cəmi:** | 23 000 nəfər |

**Qeyd:**
1.Qaçqın və məcburi köçkünlər müvəqqəti olaraq 62 şəhər və rayon ərazisində əsasən 1 600-dən çox obyektdə məskunlaşmışdır.
2.Ermənistanla və işğal olunmuş ərazilərlə həmsərhəd yaşayış məntəqələrindən olan məcburi köçkünlərin sayı (2015)-110 612 nəfərdir.

**Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) veb səhifəsi – ombudsman.gov.az**

**Facebook səhifəsi -** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili-Ombudsman

**Twitter səhifəsi:** @az_ombudsman

**Çağrı Mərkəzi: 916**